https://doi.org/10.59849/3006-1342.2026.1.113
UOT 902

*Aytən Arif qızı İsayeva*
*AMEA Gəncə bölməsi*
*Kiçik elmi işçi*
*E-mail: ayten.isayeva.1998@bk.ru*
*https://orcid.org/0009-0002-1922-9342*
*Müşərrəf Elxan qızı İbrahimova*
*AMEA Gəncə Bölməsi*
*Böyük laborant*
*E-mail: ibrahimli.muserref@mail.ru*

# GƏNCƏDƏ MİLLİ VƏ DİNİ BAYRAM ADƏT-ƏNƏNƏLƏRİ

*Məqalədə Gəncə bölgəsində qeyd olunan milli və dini bayramlar, xüsusilə Novruz, Ramazan və Qurban bayramlarının tarixi, adət-ənənələri və əhəmiyyəti işıqlandırılır. Qədim mədəniyyət mərkəzlərindən biri olan Gəncədə bu bayramlar əsrlər boyunca formalaşmış mərasimlər, ayinlər və adət-ənənələrlə müşayiət olunmuş, nəsildən-nəslə ötürülərək bu günədək qorunub saxlanmışdır. Bayramlar cəmiyyətdə birlik, həmrəylik, qarşılıqlı yardım, xeyirxahlıq və sosial ədalət kimi dəyərlərin güclənməsində vacib rol oynamışdır. Həmçinin məqalədə Gəncə sakinlərinin bayramlar zamanı yerinə yetirdikləri mərasimlər, süfrə ənənələri, xeyriyyəçilik fəaliyyəti, qohum və qonşularla münasibətlərin möhkəmləndirilməsi, ehtiyacı olanlara göstərilən diqqət kimi məsələlər etnoqrafik materiallar və tarixi mənbələr əsasında təhlil olunur. Bu ənənələr Gəncə əhalisinin milli kimliyinin, dini baxışlarının və yüksək mənəvi dəyərlərinin formalaşmasında xüsusi əhəmiyyət kəsb etmişdir.*

*Açar sözlər:* Gəncə, adət-ənənələr, milli dəyərlər, Novruz bayramı, Ramazan bayramı, Qurban bayramı

## *Giriş*

Hər bir milləti tanıdan və onu digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlərdən biri onun adət və ənənələri və bu müstəvidə yüksək mənəvi dəyərlər sisteminə malik olmasıdır.

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan da özünün zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verərək özünəbənzər adət və ənənələri, yüksək mənəviyyatı ilə diqqəti cəlb edib. Min illər boyu formalaşan bu zəngin mənəvi-əxlaqi irs Gəncə şəhərində də özünü açıq şəkildə göstərir. Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Gəncə, xalqın yüksək mənəvi keyfiyyətlərini əks etdirən təkraredilməz adət və ənənələri ilə seçilir. Burada əsrlər boyu nəsildən-nəslə ötürülən adət-ənənələr, xalqın tarixini, keçmişini və bu gününü birləşdirən mənəvi körpü rolunu oynayır. Gəncənin tarixi və mədəni irsi, şəhərin sakinlərinin milli dəyərlərə sadiqliyini və özünəməxsus adət-ənənələrini qoruyub saxlamasını nümayiş etdirir [10, s. 6].

Qədim dövrlərdən etibarən Azərbaycan xalqının, o cümlədən Gəncə əhalisinin həyatında milli və dini bayramlar, eləcə də onlarla sıx bağlı olan adət-ənənələr mühüm yer tutmuşdur. Bayramlar topluma pozitiv təsir edir, müəyyən zaman içində toplumu ritual kontekstinə salır, inanc duyğularını gücləndirir. İlk çağlardan etibarən bayramlar insanın təbiətə, təbiət hadisələrinə münasibətini ifadə edən vasitələrdən biri kimi formalaşmış, sonrakı mərhələlərdə isə cəmiyyətin gündəlik həyatı ilə sıx əlaqələnərək ictimai proses və hadisələrin özünəməxsus inikas formalarından birinə çevrilmişdir. Xalq tərəfindən təntənəli şəkildə qeyd

edilən hər bir bayram insanlar üçün dərin məna və məzmun kəsb etmişdir. Milli və dini bayramlar cəmiyyət daxilində birlik və bərabərliyi təmin edir, insanlar arasında münasibətləri gücləndirir, qohumluq əlaqələrinin və xoşgörü mühitinin formalaşmasına şərait yaradır [6, s. 13].

Bu müstəvidə də zəngin adət-ənənələrimizi özündə cəmləşdirən milli mənəvi dəyərlər sistemində Novruz bayramı özünəməxsus yer tutur [10, s. 6].

Novruz Azərbaycanda baharın gəlişini, təbiətin oyanmasını və yeni ilin başlanmasını simvolizə edən ən qədim milli bayramlardan biridir. Bu bayram hər il martın 20–22-də böyük təntənə ilə qeyd olunur və xalqın zəngin adət-ənənələrini, mərasimlərini, oyunlarını və bayram nəğmələrini özündə birləşdirir. Tarixi çox qədim dövrlərə gedib çıxan Novruz Gəncə sakinlərinin həyatında həm bahar bayramı, həm də el bayramı kimi xüsusi yer tutur. Əsrlər boyu formalaşan bu bayram təbiətin yenilənməsi, qışın sona çatması, torpağın dirçəlməsi və insanların sevinc, ümid və birlik hissləri ilə bağlıdır.

Gəncədə bayram mövsümünün başlanğıcı olaraq əvvəlcə Xıdır Nəbi bayramının təntənəli mərasimləri keçirilər və şəhərin hər məhəlləsi bu qədim ənənəyə uyğun olaraq bayram ab-havasına bürünərdi. Gəncəlilər bu bayramı hər il kiçik çillənin onuncu günü qeyd edərdilər. Deyirlər, Xıdır yaşıllığın, təbiətin oyanmasının rəmzidir. Bu bayramdan üç gün sonra yel əsir. Ona Xıdır Nəbi yeli deyirlər. Bayram günü bütün evlərdə buğda qovrulur, xəşil, plov bişirilir, qovut çəkilir, yumurta boyanır, yeddi cür nemətdən qovurğa hazırlanır, gözəl süfrə açılır. Qohum-əqrəba, məhəllə əhli bir yerə yığışar, deyib-gülər, bayram nemətlərindən qismət kəsərdilər. Qəriblər, imkansızlar, yol ötənlər süfrənin ən əziz qonaqları sayılardı [9, s. 6].

Hələ qədim dövrlərdən insanlar Novruz bayramına dörd həftə qalmış hər çərşənbə axşamı və bayram günü tonqal qalayaraq və mahnılar oxuyaraq oda, atəşə, günəşə etiqadlarını ifadə etmişlər. Bu adət-ənənələr bu gün də davam etdirilir.

Novruzdan əvvəlki son dörd çərşənbəyə Azərbaycan mədəniyyətində xüsusi əhəmiyyət verilir. İnanclara görə çərşənbə günləri, xüsusilə son dörd çərşənbə gecəsi diqqətli olmaq və təbiətə hörmət etmək vacibdir. Çərşənbələr yazın gəlişindən xəbər verir [16].

Novruz çərşənbələrinə el arasında cəmlələr də deyilir. “Cəmlə” – cəm olmaq, birlik mənasını ifadə edir. Novruzdan əvvəl dörd ilahi başlanğıc – su, od, yel, torpaq birləşərək cəmlənir [8, s. 276].

Ta qədimdən Gəncə məhəllələrində çərşənbələr böyük bir təmtəraqla qeyd olunardı. Hər çərşənbə tonqal qalanar, "Ağırlığım, uğurluğum, qada-balam, get" deyib tonqal üstündən atılardılar. Axır çərşənbə istisna olmaqla, əvvəlki üç çərşənbədə tonqalın sönməməsi vacib idi və mütləq plov bişirilirdi. Hər ailə öz imkanına uyğun süfrə açar, yeddi növ naz-nemətlə süfrəni bəzəyərdi.

Birinci çərşənbəmiz olan su çərşənbəsi bəzən yalançı çərşənbə və ya əzəl çərşənbə adlanır. Baharın gəlişi ilə buzlar əriyir, çayların donu açılır, torpaq və ağaclar yavaş-yavaş canlanır. Torpaq tədricən islanmağa başlayır. Adətə görə qızlar bulaqlardan sərin, şirin su gətirər, evin ətrafına çiləyər və üzlərini yuyardılar [16].

Od çərşənbəsi xalq arasında xəbərçi çərşənbə, üskü çərşənbə adlanır. Bahara doğru günəş torpağı tədricən isidir, onu yaratmaq üçün hazırlayır. Od çərşənbəsində tonqallar qalayardılar. Hər ailə üzvü üçün ayrıca şam yandırılırdı. Xonçalar düzəldilərdi.

"Məzar üstü" adəti də ikinci çərşənbədə yəni, od çərşənbəsində icra edilərdi. İli çıxmayan mərhumlara "Qara bayram" keçirərdilər. Ehsan verilər, "Yasin" oxunar və mərhumun qəbrinin üstünə səməni və bayram xonçası qoyardılar [9, s. 6].

Novruz çərşənbələrinin üçüncüsü yel çərşənbəsidir. Torpağın canlanması üçün hərəkət lazım idi. Yel baba yatmış torpağı silkələyir, oyadır və cana gətirir. Dörd ilahi başlanğıcdan üçüncüsü olan Yel babanın şərəfinə xüsusi mərasimlər keçirilmiş, müxtəlif ayinlər icra

olunmuşdur. Xırman vaxtı keçirilən Yel baba mərasimi, Xıdır Nəbi bayramı və nəhayət, yel çərşənbəsi insanların yelə olan inamı ilə bağlıdır [14, s. 36-37].

Dördüncü çərşənbə isə torpaq çərşənbəsi (ilaxır çərşənbə) adlanır. Bu çərşənbə torpağın isinib oyanması rəmzidir. Əski inanclara görə, təbiətdəki dörd əsas qüvvədən sonuncusu olan torpaq oyandıqda sel, yel, atəş də güclənir, təbiətin enerjisi artır və insanlar qıtlıqdan, çətinlik və sıxıntılardan qurtulur [3, s. 141].

Axırıncı çərşənbə özünəməxsus adət və mərasimləri ilə digər çərşənbələrdən fərqlənir [16]. Bu çərşənbə Gəncədə xüsusi təntənə ilə qeyd olunardı. Hər yerdə ləziz yeməklər hazırlanar, gözəl süfrə açılardı. Süfrənin ən önəmli bəzəyi isə səməni idi [5, s. 10]. Səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzi sayılırdı. Hər kəs səməni əkərək növbəti ilə bolluq, bərəkət və ruzi arzulayırdı.

Süfrəyə şəkərbura, paxlava, badambura, şəkərçörəyi, qoz, fındıq, püstə, badam, kişmiş və s. qoyulardı. Bunlardan Gəncə paxlavası respublikanın müxtəlif şəhər və rayonlarında adətən Novruz bayramı ərəfəsində, nişan və toy məclislərində hazırlanırdı. Bu paxlava digər bölgələrdə bişirilən paxlavalardan öz ölçüsünə və ona əlavə edilən ədviyyatına görə fərqlənir. Gəncə paxlavası adətən mis məcməyidə, köz üzərində bişirilir və bir qədər böyük ölçüdə romb şəklində kəsilirdi [4, s. 7].

Bayram xonçası üçün qırmızı, sarı rəngdə yumurtalar boyanar, axşamüstü tonqal qalanar, uşaqlar qapı-qapı gəzib papaq atar, bayram payı yığardılar.

İlaxır çərşənbədə qapı pusma və müxtəlif fal adətləri icra olunardı. İnsanlar ürəklərində niyyət tutaraq qapı pusar, evdən eşitdikləri sözləri niyyətləri ilə əlaqələndirməyə çalışardılar. Eşidilən sözlər niyyətə uyğun gələrsə, arzuların gerçəkləşəcəyinə inanardılar. Bu gün nişanlı qızlara xonça aparılar, yeni ailə quranlara isə bayram münasibətilə hədiyyələr təqdim olunardı.

Qızlar sübh tezdən dan yeri ağaran kimi bulağa gedib su gətirər, əl-üzlərini yuyardılar. Bulağın gözündən su götürüb səhəngin dibinə yeddi balaca daş salardılar. Oğlanlar isə üç ədəd böyürtkən budağı gətirib qapının başına və astanasına bağlayardılar.

Gəncədə məhəllələrə "basalax" deyilir. Bir çox məhəllələrdə, məsələn, Şahsevən, Səfərabad, Toyuqçu, Tatabad, Əttarlar kimi qədim, köklü məhəllələrdə Novruz bayramı hər zaman böyük coşqu ilə qeyd edilərdi. Bayrama iki həftə, on gün qalmış hər kəs öz imkanına görə hazırlıq görərdi. Qapı-pəncərələr əhənglə ağardılar, həyət-baca tərtəmiz süpürülər, xalça-palaz çırpılıb təmizlənər, ev-eşik səliqəyə salınardı [9, s. 6].

Bayram günlərində həyətlər, küçələr, baxça-bağ adamla dolu olardı. Böyükdən-kiçiyə hamı Cıdır meydanına axışardı. Cıdır meydanı Gəncə şəhərinin mərkəzində, Şah Abbas məscidinin yaxınlığında yerləşirdi. Çaparlar gələnə kimi uşaqlar və gənclər dəstə-dəstə toplaşıb yumurta döyüşdürər, oyun oynayar, gülər, şənlənərdilər. Meydanın başından zurna-balaban səsi eşidilən kimi hamı atlıları görməyə çalışardı.

Bellərində oxları, çiyinlərində aynalı tüfəngləri qıvraq geyimli bığıburma atlılar ikibir, üçbir meydanın ortasında ağır-ağır at oynatmağa başlardılar. Cıdır qızışdıqca, kimi kəhər atı, kimi boz atı, kimi kürəni tərifləyər, hərdən mərc gələr, qaliblərə nəmər verərdilər [9, s. 6].

Çərşənbələrdə olduğu kimi, Novruz axşamı da tonqal qalanır, evlərdə hər ailə üzvü adına şam yandırılırdı. Bu bayramda kimsəsizlərə, ehtiyacı olanlara və yaşlılara baş çəkmək, onlara bayram sovqatı vermək böyük savab sayılırdı [7, s. 7].

Bu bayram və onunla bağlı olan ayin və mərasimlər, inanclar, adət-ənənələr minillər boyu yaşadılmış, zamanla dəyişikliklərə məruz qalsa da əvvəlki məzmununu, əlamətlərini itirməmiş, dövrümüzədək gəlib çatmışdır [3, s. 142].

Əsrlərdən bəri bütün müsəlmanlar tərəfindən qeyd olunan iki böyük dini bayramlardan biri də Ramazan bayramıdır [6, s. 132]. Başqa müsəlman xalqlarında olduğu kimi, Azərbaycanda da, xüsusilə qədim Gəncə şəhərində Ramazan bayramının keçirilməsində bir

çox milli ənənələr mövcud olmuşdur [15, s. 146]. Gəncə sakinləri arasında bu bayramın qeyd olunması həm dini, həm də mədəni ənənələrlə bağlıdır və zaman-zaman şəhərin etnik və tarixi xüsusiyyətlərinə uyğun olaraq formalaşmış bir sıra lokal adətlər müşahidə olunur.

Qurani-Kərimə əsasən islam şəriətində müsəlmanların yerinə yetirməsi vacib sayılan əməllərdən biri Ramazan ayında oruc tutmaqdır. Gəncə əhalisi də əsrlər boyunca bu dini öhdəliyi böyük həvəslə yerinə yetirmişdir. Quranda Orucluq hər il hicri-qəməri təqviminin Ramazan ayında 30 gün müddətinə təyin edilmişdir. Tarixi məlumatlara görə, İslamda Ramazan orucu hicrətin 2-ci ilində (miladi 624-cü ildə) Bəqərə surəsinin 183-cü ayəsinin nazil olması ilə vacib hesab edilmişdir [15, s. 146].

İslamda oruc Allaha ibadətin bir forması olub, insanın nəfsini təmizləmək, ruhunu saflaşdırmaq, pis əməllərdən və eybəcərliklərdən uzaqlaşmaq, insanlar arasındakı düşmənçiliyi aradan qaldırmaq, iradə və mətinliyi gücləndirmək kimi əxlaqi xüsusiyyətləri özündə cəmləyir.

Ramazan ayında oruc bir ay boyunca tutulur. Səhər tezdən sübh vaxtı günəş çıxanadək sahura qalxıb yemək yeyilir, bundan sonra oruc başlayır, bir də axşam gün batandan sonra iftar açılır. Yəni, günəşin göründüyü saatlar orucun vaxtını müəyyən edir. Lakin oruc tutmaq hər kəs üçün məcburi deyildir. Orucu xəstələr, hamilə qadınlar, uşaqlar, səfərdə olanlar tutmaya da bilər [6, s. 32].

Gəncədə Orucluğun keçirilməsində xalqın özünəməxsus adət-ənənələri qorunub saxlanmışdı. Adətə görə, Ramazan ayı başlamazdan bir-iki gün əvvəl niyyət edilər və oruc namazı qılınardı. Oruc tutan şəxs paklığını qorumalı, günün müəyyən edilmiş vaxtında – sübh azanından axşam namazına qədər yeməkdən və digər qadağan edilmiş hərəkətlərdən çəkinməli, Quran oxumalı, dualar etməli, yalnız Allahın bəyəndiyi həyat tərzini yaşamalı idi. Gün batandan sonra isə "iftar" zamanı yemək yeməyə icazə verilirdi. Gəncədə iftarla da bağlı əhalinin özünəməxsus adət-ənənələri olmuşdur. Adətə üzrə imkanlı insanlar evlərində böyük iftar süfrələri hazırlayar və oruc tutan yaxınlarını yeməyə dəvət edərdilər. Xalq arasında belə bir inanc var idi ki, iftar süfrəsində ehsan yemək həmin ailəyə savab qazandırır. İftar vaxtına qədər Quran oxunur və Ramazan ayı ilə bağlı xüsusi dualar edilirdi. Şəriətə görə şam azanı ilə orucun açılmasına icazə verilsə də, ibadətə böyük diqqət yetirən şəxslər öncə namaz qılır, sonra isə iftar süfrəsinə oturaraq, oruclarını açırdılar.

Ramazan ayında icra olunan adətlərdən biri də, ölülər üçün Quran xətm etmək adəti olmuşdur. Bu adətə görə, hər bir ailə mollaya pul verərək, günahlarının bağışlanması niyyətilə vəfat etmiş ailə üzvləri və ya yaxın qohumları üçün Quran oxutdurardı. Qaydaya görə bu niyyətlə oxunan Quran mütləq Ramazan ayı ərzində xətm olunmalı və "tapşırılmalı" idi. Bu məqsədlə "Quran tapşırma" mərasimi keçirilər, qonaqlar dəvət edilərdi. Xalq arasında belə bir inam var idi ki, Quranın Ramazanın əhya gecələrində tapşırılması mərhuma daha çox savab qazandırır. Buna görə də, mərasimin əsasən həmin günlərdə keçirilməsinə xüsusi diqqət yetirilirdi. Quran tapşırma duasından sonra ehsan süfrəsi açıldığı üçün, mərhumun qəbrinin ziyarəti ilə başlayan bu mərasimlər oruc tutanları nəzərə alaraq adətən iftar vaxtına təsadüf edirdi [15, s. 148].

Ramazan ayı "Qədr gecəsi" ilə tanınır, lakin bu gecənin ayın hansı gününə təsadüf etdiyi dəqiq bilinmir. Bu da ilahi sirlərin biridir, çünki müsəlmanlar Ramazan ayının bütün gecələrinə hörmətlə yanaşır, ibadət və vəzifələrini uca Allah qarşısında layiqincə yerinə yetirməyə çalışırlar. Qurani-Kərimdə deyilmişdir: "Qədr gecəsi savabına görə min aydan daha xeyirlidir" (Qurani-Kərim, əl-Qədr, 3) [1, s. 79].

Ramazan ayı "Eydül-fitr" deyilən orucluq bayramı ilə başa çatır. "Fitr" sözü orucu bitirib iftar etmək deməkdir. Fitr bayramı orucluq qurtaran günü şəvval ayının girməsi ilə başlayır. Bu gündə möminlər, oruc tutanlar və tutmayanlar bir-birini təbrik edir və "oruc namazın qəbul olunsun" deyirlər. Həmin axşam imkanına görə hər kəs bayram süfrəsi açır. Bu

bayramın özəlliklərindən biri də bayram günü ixtiyarı öz əlində olan, azad olan hər bir müsəlmanın kasıbların xeyrinə fitrə çıxarması (verməsi) adətidir. İslamda fitrənin minimum miqdarı təxminən 3 kq buğdanın qiymətinə bərabərdir. Bu normadan artıq verilən fitrəyə hədd qoyulmur. Hər kəs öz adından və himayəsində olan şəxslər üçün fitrə verməlidir. Fitrə əsasən yoxsullara, ehtiyacı olanlara verilirdi. Üzrlü səbəbə görə oruc tuta bilməyən şəxslər, tuta bilmədiyi oruclar üçün fitrə verməlidirlər ki, buna "fidyə" deyilirdi [6, s. 37-38].

Orucluq bayramında nişanlı oğlan qız evinə bayram hədiyyəsi göndərir. Milli şirniyyatlı, noğullu-badamlı xonçalar yan-yana düzülür [1, s. 80].

Bayram günü insanlar bir araya gələrək mehribanlıq və birlik nümayiş etdirirdilər. Beləliklə, Orucluq bayramı nəfsin tərbiyəsi, ruhun güclənməsi və mənəvi təkamül üçün əhəmiyyət daşıdığı kimi, qarşılıqlı yardım, sosial həmrəylik üçün də zəmin yaradırdı [15, s. 150].

Gəncə bölgəsində Ramazan ayı və bayramı qədər Qurban bayramına da böyük əhəmiyyət verilir və bu bayram özünəməxsus qədim ənənələrlə qeyd olunur. Ramazan bayramından 70 gün sonra Qurban bayramı keçirilir. Qurban sözü ərəb mənşəlidir və Allahın rızasını qazanmaq məqsədilə, eyni zamanda kasıblara paylamaq niyyətilə fərz, vacib və ya sünnət olaraq kəsilən (qoyun, keçi, mal, dəvə kimi) heyvanı, eləcə də bir məqsəd uğrunda fəda olunan kimsəni ifadə edir. Qurban ayı ərəb təqvimi üzrə zilhiccə ayına təsdüf edir, Qurban bayramı isə zilhiccə ayının onunda, yəni hicri ilin sonuncu ayı başlayan və müsəlmanların qurban kəsdikləri dini bayramdır [13, s. 110-111].

İslamda Qurban bayramı İbrahim peyğəmbərin adı ilə bağlıdır. Qurani-Kərimdə bildirilir ki, o Allah qarşısında sədaqətini göstərmək üçün oğlu İsmayılı qurban vermək istəyir. Lakin, Allah Cəbrayıl vasitəsilə bir qoç göndərərək, oğlunun yerinə onu kəsməyi İbrahimə əmr edir. Məhz buna görə, bu qurbana "İsmayıl qurbanı" deyilir [1, s. 72].

İsmayıl Qurbanında kəsilən heyvanlarda müəyyən şərtlər tələb olunurdu. Qurbanlıq heyvan adətən qoç, iribuynuzlu dana və ya dəvə olmalı idi. Nəsil artımında dişi heyvanların xüsusi rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması üstün tutulurdu [11, s. 7]. Qeyd etmək lazımdır ki, Qərb bölgəsində təkcə erkək heyvanlar deyil, həm də dişi heyvanlar qurban kəsilirdi [2, s. 116]. Qurbanlıq qoç ən azı altı aylıq olmalıydı, dana və ya dəvənin isə bir yaşı tamam olarsa daha yaxşı hesab edilirdi [11, s. 7]. Qurban adətlərinə görə kəsiləcək heyvan sağlam olmalı və heç bir şikəstliyi olmamalı idi.

Bu bayramın əsas mahiyyəti Allah yolunda kəsilən qurbanlıq heyvanın ətini ehtiyacı olan insanlarla paylaşmaq, onları sevindirmək və sevinclərinə şərik olmaqdır. Beləliklə, bu bayramın və ayinin də əsasında, orucluqda olduğu kimi, xeyirxahlıq, paklıq və Allaha inam və sevgi durur.

Bayram günü camaat məsciddə iki rükət bayram namzı qıldıqdan sonra qurbanlarını kəsirdilər [12, s. 152]. Adətə uyğun olaraq, qurbanlıq heyvan molla Quran oxuduqdan sonra kəsilərdi. Kəsilən heyvanın qanı  bir qaba toplanıb basdırılardı. Qurbanlıq ətindən yeddi qapıya pay ayrılırdı. Bu paylar əsasən kasıblara, əlil və yaşlılara, kimsəsizlərə və maddi imkanı olmayanlara verilirdi [2, s. 117].

Gəncədə adətə görə, Qurban bayramında nişanlı qızların adına oğlan evindən alnına, ayaqlarına xına çəkilmiş, boynuna qırmızı parça bğlanmış, zınqırov asılmış qurbanlıq qoyun gedir və bu, sevinc payı olaraq yola salınırdı. Digər bayramlarda olduğu kimi, bu bayramda da oğlan evindən qız evinə hədiyyələr, bəzəkli xonçalar göndərilirdi [1, s. 72].

Humanist və xeyirxah məqsədlərin daşıyıcısı olan bu bayram  Gəncə əhalisinin həyatında mühüm yer tutmuş və bu gün də böyük həvəslə qeyd edilməkdədir.

**ISSN: 3006-1342**

*Nəticə*

Beləliklə, Gəncə bölgəsində milli və dini bayramlar, xüsusilə Novruz, Ramazan və Qurban bayramları qədimdən bəri əhalinin mənəvi-əxlaqi dəyərlərinin formalaşmasında mühüm rol oynamışdır. Bu bayramlar əsrlər boyu birlik, həmrəylik, xeyirxahlıq və qarşılıqlı yardımı təşviq edərək nəsildən-nəslə ötürülmüş, zamanla dəyişsə də öz əsas mahiyyətini qoruyub saxlamışdır. Həmin ənənələr Gəncə sakinlərinin milli kimliyinin, humanist dünyagörüşünün və yüksək mənəviyyatının bariz göstəricisidir.

ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2007, 568 s.
2. Allahmanlı M. Azərbaycanın qərb bölgəsinin mənəvi mədəniyyətindən (tarixi-etnoqrafik tədqiqat). Bakı, "Nurlan", 2011, 176 s.
3. Babayev T. Xalq bayramları. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə, "Azərbaycan" cildi. Bakı, 2007, s. 141-143.
4. Bayramova Y. Novruz ənənələri // Yeni Azərbaycan. 13 mart 2025. № 046 (6874). S. 7.
5. Əliyev İ. Milli adət və ənənə - Novruz bayramı // Səs. 2 mart 2011. S. 10.
6. Əsgər Əhməd. "XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti". Bakı, "Elm" nəşriyyatı, 2012, 372 s.
7. Əziz Mustafa. Milli adət və ənənələr mənəvi dəyərlər sistemində // Zaman. 2 iyul 2014. S.7.
8. Gəncə folkloru antologiyası, III kitab. Gəncə, "Elm", 2016, 450 s.
9. İsayev Ə. Novruz ulu tariximiz, müqəddəs ənənəmizdir // Azərbaycan. 20 mart 2011. S. 6.
10. Qarayeva S. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği // 525-ci qəzet. 28 iyun 2019. № 92. S.6.
11. Qocayev Ə. Bayramlar və tarixi günlər. Bakı, Altun Kitab, 2006, 152 s.
12. Məmmədova İ. Azərbaycanda qarşılıqlı yardım formaları (tarixi-etnoqrafk tədqiqat) Bakı, Elm, 2011, 216 səh.+ 24 səh. rəngli
13. Məmmədova M. Azərbaycan və Anadolu folklorunda oyun və tamaşalar. Bakı, "Elm və təhsil", 2014, 202 s.
14. Novruz adət-ənənələri, Gəncə, "Elm" nəşriyyatı, 2011, 98 s.
15. Şiriyev T. Azərbaycanda Orucluq bayramı ənənələri. Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası №4, 2018, s.146-151.
16. https://www.xalqcebhesi.az/news/project/168645.html

УДК 902

*Айтен Ариф кызы Исаева,*
*Мюшарраф Эльхан кызы Ибрагимова*
*Гянджинское Отделение НАНА*

## НАЦИОНАЛЬНЫЕ И РЕЛИГИОЗНЫЕ ПРАЗДНИЧНЫЕ ТРАДИЦИИ В ГЯНДЖЕ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа, обычаи и традиции, национальные ценности, Новруз, Рамазан-байрам, Курбан-байрам

В статье рассматриваются национальные и религиозные праздники в Гяндже - одном из древнейших культурных центров Азербайджана - в частности Новруз, Рамазан-байрам и Курбан-байрам, их исторические корни, обрядовая практика и

общественное значение. На протяжении веков данные праздники сопровождались устойчивыми церемониями, ритуалами и традициями, передававшимися из поколения в поколение и сохраняющимися до настоящего времени. Праздничные обряды играли важную роль в укреплении общественных ценностей единства, солидарности, взаимопомощи, милосердия и социальной справедливости. На основе этнографических и исторических источников в статье анализируются традиции, соблюдаемые жителями Гянджи в праздничные дни: обрядовые действия, культура застолья, благотворительная деятельность, укрепление родственных и соседских связей, а также проявление заботы о социально уязвимых слоях населения. Отмечается, что данные традиции имели существенное значение для формирования национальной идентичности, религиозного мировоззрения и системы нравственных ценностей населения Гянджи.

UDC 902

*Aytan Arif Isaeva,*
*Musharraf Elkhan Ibrahimova*
*Ganja Branch of ANAS*

NATIONAL AND RELIGIOUS HOLIDAY TRADITIONS IN GANJA

*SUMMARY*

*Keywords:* Ganja, customs and traditions, national values, Nowruz, Eid al-Fitr, Eid al-Adha

The article examines the national and religious holidays celebrated in Ganja—one of the ancient cultural centers of Azerbaijan—particularly Nowruz, Eid al-Fitr, and Eid al-Adha, with a focus on their historical origins, ritual practices, and social significance. Over the centuries, these holidays have been accompanied by established ceremonies and traditions that have been transmitted from generation to generation and preserved to the present day. The observance of these holidays has played an important role in reinforcing social cohesion and promoting values such as unity, solidarity, mutual assistance, compassion, and social justice within the community. Drawing upon ethnographic and historical sources, the article analyzes the practices observed by the residents of Ganja during festive periods, including ceremonial gatherings, hospitality customs, charitable activities, the strengthening of kinship and neighborhood ties, and care for socially vulnerable groups. These traditions have contributed significantly to the formation of national identity, religious consciousness, and the moral framework of the local population.

***Daxil oldu: 20.02.2026-cı il***